DÜNYA XƏBƏRLƏRİ

ABŞ, Çin və Rusiya liderləri noyabrın 19-da görüşəcək

Noyabr 16, 2026



Purin, Tramp və Cinpin

Çin Xarici İşlər Nazirliyi (XİN) Çin lideri **Si Cinpin**, ABŞ prezidenti **Donald Tramp** və Rusiya prezidenti **Vladimir Putin**in noyabrın 19-da Şençjen şəhərində görüşəcəyini təsdiqləyib. Üçtərəfli görüş Trampın rəsmi iş qrafikində də yer alıb.

Görüş Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) sammiti çərçivəsində baş tutacaq. Bu, tarixdə belə formatda keçirilən ilk görüş olacaq.

Çin XİN üç liderin hansı məsələləri müzakirə edəcəyini açıqlamayıb.

"The Financial Times" adı açıqlanmayan amerikalı rəsmiyə istinadla yazır ki, Çin, Rusiya və ABŞ görüşün əvvəlcədən razılaşdırılmış gündəliyindən imtina ediblər.

Nəşrin həmsöhbəti bildirib ki, Tramp nüvə silahlarına nəzarət və onların yayılmaması məsələsini qaldıracaq, amma hər hansı razılaşmanın əldə olunacağını gözləmir: **"Bu, Çin üçün mürəkkəb mövzudur, amma hesab edirik ki, Çinin danışıqlar masasına əyləşməsinin vaxtı çatıb".**

Tramp bundan əvvəl demişdi ki, üç nüvə dövlətinin liderləri arasında görüşün əsas mövzusu "nüvəsizləşdirmə" olacaq.

Daha əvvəl media Ukraynadakı müharibənin görüşün mərkəzində durmayacağını bildirmişdi.

Kiyev isə "Ukrayna haqqında Ukraynasız" müzakirələrin aparılmasının arzuolunmaz olduğu barədə xəbərdarlıq etmişdi.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur